# 7 ay komada qaldı - antiterror şəhidi Bağırov Ülvi...

***Gülxas Bağırova:*** *"...Hər gün onun ayılacağını ümidlə gözlədik"*











*"Ülvi mənə həmişə deyirdi ki, ana, səni saraylarda yaşadacağam"*

Əzizinəm Salyana,
Dara zülfün sal yana.
Necəsən bir ah çəkəm
Kür alışa, sal yana...

Bu bayatını hansı bağrı kösöv olan ana yaradıb, bala dərdindən ahı ərşə bülənd olan ata oxuyub? Kim bilir? Bu bayatını ilk oxuyan bəlkə də dərdi dağ boyda olan, ahı ilə Kürü qurudub salı alışdıran qubarlı bir ana olub. Bu bayatıya dərdini bükən, qəmini naxışlayan analar olub elə.

Salyanda bir ana var, Gülxas ana. Yeganə oğlu şəhid Ülvini qurban verib Vətənə. Gülxas ana ilə Biləsuvar rayonunda yaradıcılıq ezamiyyətində olarkən tanış olduq, danışdıq, dərdləşdik.

Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi "44 gün-Tarixi zəfər" IV cildliyinin III və IV cildlərinin təqdimat mərasiminə Gülxas ana da gəlmişdi. "Oğlum Azərbaycan Ordusunun zabiti, leytenant idi. Ülvi ali hərbi məktəbi bitirdi. Leytenant rütbəsi aldı. Təyinatı 2022-ci ildə Qubadıya verildi. 2023-cü ilin sentyabrında həyata keçirilən antiterror əməliyyatı zamanı ağır yaralandı. Balam 7 ay komada qaldı, hər saat, hər gün onun ayılacağını ümidlə gözlədik. Amma qismət olmadı. 2024-cü ilin aprel ayının 7-də şəhadətə ucaldı, ayın 8-də Salyan rayon Şəhidlər Xiyabanında dəfn olunub.

Bir qızım, bir oğlum vardı. Ülvi ilk övladım olduğu üçün ürəyimdə onun yeri ayrı idi. 23 yaşını hospitalda komada olarkən tamamladı. Oğlumun o qədər arzuları vardı ki, həyata keçmədi. Hər bir gənc kimi ailə qurmaq istəyirdi. Mənim də onunla bağlı arzularım çox idi. Bir qız istəyirdi. Fikirlişirdik ki, evləndirək, ev-eşik sahibi olsun. Amma qismət olmadı. Ülvini itirdiyim üçün təəssüflənsəm də, amma onun Vətən uğrunda şəhid olmasından qürur hissi keçirirəm. Ülvi mənə həmişə deyirdi ki, ana, səni saraylarda yaşadacağam. Amma özü kirayələrdə böyüdü. Oğlum ev aldı, amma içində yaşamaq özünə qismət olmadı. Aldığı evdə heç bir ay yaşamadı. Bizi ev-eşik sahibi etdi, özü də torpaq altındakı evinə köçdü".

Ana deyir ki, elə gün yoxdur Ülvinin yolunu gözləməyə, elə gün olmur balasının zəng edəcəyi ümidilə yaşamaya, hər gün onu gözləyir: "Onun səsinə bənzər səs eşidəndə elə bilirəm balam gəlir. Boyuna bənzər boy görəndə elə bilirəm ki, "ana, mənəm, birdəfəlik evimizə qayıtmışam. Daha ağlama. Elə gözləyirəm ki..." deyəcək...

Bağırov Ülvi Hənifə oğlu 22 mart 2001-ci ildə Salyan rayonunda anadan olub. Orta təhsilini Əliağa Kürçaylı adına orta təmayüllü liseydə aldıqdan sonra Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olub. Vətən müharibəsində iştirak edən Ülvi Bağırov bir sıra rayonlarımızın azad edilməsində böyük rəşadət göstərib. Vətən müharibəsində iştirakına görə Ali Baş Komandan cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəsur döyüşçü" medalı ilə təltif edilib.

Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu olan Bağırov Ülvi Hənifə oğlu Qarabağda həyata keçirilən antiterror əməliyyatı zamanı 19 sentyabr 2023-cü il tarixində ağır yaralanır və 7 ay komada qaldıqdan sonra 07 aprel 2024-cü il tarixində Hərbi Hospitalda şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu Bağırov Ülvi Hənifə oğlu Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin sərəncamına əsasən "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Ana deyir ki, Ülvi Vətən müharibəsində də şücaətlə döyüşüb, qəhrəmanlıqlar göstərib, şəhidlik ona həmin müharibədə yox, 2023-cü ildə qismət olub. "Oğlum Vətən müharibəsində də qəhrəmanlıqla döyüşüb. Onunla fəxr edirəm.

Bu gün şəhidlər haqda kitablar, məqalələr yazılır. Bu bizi çox sevindirir. Təsəllimiz odur ki, balalarımız yaddan çıxmır"-deyə Gülxas ana bildirir.

Yanaqlarından yaş süzülür...Danışa bilmir...Nə danışsın ki...Bütün şəhid anaları kimi onun da fikri-xəyalı bir-birinə dolaşıb, əslində çox şey danışar balası haqda, amma göz yaşı macal vermir...

"Əl vurmayın yarama,
Məndə oğul dağı var"-deyən ananın ürəyi qan ağlasa da, bircə oğlunun qəhrəmanlığı ilə öyünür, təsəlli tapır...

***İradə SARIYEVA***
***Biləsuvar-Bakı***